# Azərbaycan-Türkiyə qardaşlığı region üçün də faydalıdır

**"Prezident İlham Əliyevin Türkiyə səfəri özündə kifayət qədər ciddi və məqsədyönlü xarakter daşıyan bir sıra addımları ehtiva edir. Səfər çərçivəsində Azərbaycan və Türkiyə prezidentlərinin geniş və əhatəli müzakirə aparmaları bölgədəki vəziyyətlə bağlı zərurətdən irəli gəlir. Nəzərə almaq lazımdır ki, Azərbaycanın geosiyasi məsələlərlə bağlı ən çox məsləhətləşdiyi ölkə Türkiyədir. Həmçinin qardaşlıq münasibətlərimiz o səviyyədədir ki, bir-birimizlə məsləhətləşmədən heç bir addım atmırıq".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Deputat qeyd edib ki, bölgədə situasiya elə formalaşıb ki, mövcud şərtlərə görə davranmaq olduqca çətinləşib: "İsrail-Həmas müharibəsi, həm də Rusiya-Ukrayna müharibəsi yeni fazaya daxil olub. Bu, olduqca böyük təhlükələr ortaya qoyur. Xüsusilə də Ukraynanın daha uzaqmənzilli raket və təyyarələrdən istifadə edərək Rusiya ərazisinə hücuma keçməsi müharibənin miqyasının genişlənəcəyindən xəbər verir. Belə bir vəziyyətdə Azərbaycan və Türkiyə təhlükəsizlikləri üçün zəruri addımlar atmalıdırlar".

Deputat bildirib ki, Azərbaycanla Türkiyə arasında Türk Dövlətləri Təşkilatının yeni formatda daha aktiv rol ala biləcək səviyyəyə gətirilməsi məsələsi də gündəmdədir: "Prezidentlər arasında aparılan müzakirələr ciddi əhəmiyyət kəsb edir. Bu görüş Azərbaycanla Türkiyə arasında münasibətlərin bölgənin siyasi həyatına nə qədər təsir edəcəyini göstərir. Təbii ki, müzakirələr zamanı hər iki dövlətin maraqları nəzərə alınır".

Fazil Mustafa həmçinin söyləyib ki, növbəti ay Rəcəb Tayyib Ərdoğanın da Azərbaycana səfəri gözlənilir: "Yəni təhlükəsizliyin təminatı və tərəfdaşlığın inkişafı üçün bu görüşlər davamlı xarakter daşıyır. Bu həm də müəyyən qədər beynəlxalq situasiyadan asılıdır".

Deputat səfər çərçivəsində Azərbaycanla Ermənistan arasında sülh danışıqları məsələsinin də geniş müzakirə olunduğu ehtimalını diqqətə çatdırıb: "Nəzərə almaq lazımdır ki, bu məsələ həm də Türkiyəni ciddi şəkildə düşündürür. Çünki Ermənistan yalnız Azərbaycanla deyil, paralel olaraq Türkiyə ilə də münasibətlərini qaydaya salmalıdır. Əgər İrəvan bölgədə mövcudluğunu normal şəkildə sürdürmək istəyirsə, hər iki dövlətlə əlaqələrini qaydaya salmalıdır. Bu vəziyyətə görə sülh istiqamətində trayektoriyanın müzakirə olunması zərurətdən irəli gəlir. Çox ehtimal ki, bu məsələlər hələ bir müddət gündəmdə olacaq və geniş şəkildə müzakirə olunacaq".

Deputat yekunda vurğulayıb ki, Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri zaman keçdikcə daha da möhkəmlənir, uğurla inkişaf edir: "Bu gün Türkiyə-Azərbaycan birgə fəaliyyəti xüsusilə region üçün önəmli amilə çevrilib".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 12 iyun, № 123.- S.5.